**Tapşırığın adı:** Məktəb icmaları ilə işin təşkili üzrə milli məsləhətçi

**İcra olunduğu yer:** Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (TSİİL)

**İcra müddəti:** oktyabr 2014 – mart 2016

**Məkan:** Təhsil Nazirliyi, Bakı şəhəri

**Tapşırıq və vəzifələr:**

- Valideynlərin və icmanın məktəb həyatında iştirakının yaratdığı vəziyyətə, problemlərə və imkanlara dair hesabatın hazırlanması;
- Məktəb icmaları ilə məsləhətləşmələrin təşkili;
- Dövlət agentliklərinin, yerli hakimiyyət orqanlarının, məktəb və birliklərin rol və öhdəliklərinin ətraflı təsviri ilə təhsil xidmətlərinin göstərilməsi üzrə mövcud hüquqi baza və institusional tədbirlərin nəzərdən keçirilməsi;
- Təhsil sahəsində icmanın iştirakının cari vəziyyətinin təhlil edilməsi;
- Valideynlərin və icmanın iştirakını əhatə edəcək siyasət sənədinin və əhatəli təlimatların işlənib hazırlanması;
- Tapşırıq ilə bağlı digər vəzifələrin Təhsil Nazirliyinin tələb etdiyi qaydada yerinə yetirilməsi.

**İxtisas tələbləri:**

- Təhsil, idarəetmə və ya digər müvafiq sahədə ali təhsil;
- Təhsil, xüsusilə təhsilin idarə edilməsi sahəsində ən azı 5 il iş təcrübəsi;
- İdarəetmə və təşkilati sahədə təcrübə;
- Azərbaycan və ingilis dillərində yüksək bilik;
- Kompüter proqramları ilə yüksək işləmə bacarığı;

**Müraciət forması:**

**Maraqlanan şəxslər vakansiyanın adını göstərməklə tərcümeyi-halı (CV)** y.manafova@edu.gov.az **ünvanına göndərə bilər.**

**Son təqdim edilmə tarixi: 27 avqust 2014-cü il, 18:00**

**Əlaqə üçün məlumat:**


**Azərbaycan Respublikasının Təhsil Nazirliyi,**

**Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,**

**AZ1025, Bakı şəhəri, Nobel prospekti, 15.**

**Əlaqə telefonları: (99 412) 488 66 47/48; Faks: (99 412) 488 66 49**

**E-poçt:** y.manafova@edu.gov.az